

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 5-6
(7054-7055) ✻ Bazar ertəsi, 21 yanvar 2013-cü il ✻ Qəzet ayda 4 dəfə çıxır ✻ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Norveç Krallığı xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə dövlətlərarası ikitərəfli məsələlər müzakirə olunmuşdur.

✻ ✻ ✻

Yanvarın 16-da ölkəmizdə səfərdə olan Sloveniya Respublikasının Baş naziri Yanez Yanşa ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Sloveniya arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensialı olduğu vurğulanmış, səfərin uğurlu olacağı, siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və güclü tərəfdaşlıq əlaqələrinin qurulması işinə təkan verəcəyinə ümidvarlıq bildirilmişdir.

✻ ✻ ✻

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Fəhd ibn Əli əd-Dosərini diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir. Səfir fəaliyyəti dövründə Azərbaycanın bütün regionlarına etdiyi səfərlər zamanı Bakıda və bölgələrdə böyük inkişafın şahidi olduğunu vurğulamış, ikitərəfli əlaqələrin gələcəkdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirmişdir.

✻ ✻ ✻

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ müdafiə nazirinin baş müşaviri xanım Ketlin Hiksin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Xanım Ketlin Hiks bildirmişdir ki, ABŞ ölkələrimiz arasında müdafiə sahəsində əlaqələri daha da genişləndirməkdə və strateji əməkdaşlıq səviyyəsinə çatdırmaqda maraqlıdır.

✻ ✻ ✻

Dövlət başçısı İlham Əliyev I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalamışdır.

✻ ✻ ✻

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Uruqvay Respublikası Prezidentinin xüsusi elçisi, Prezident Administrasiyasının dövlət katibi Diyeqo Kanepanı qəbul etmişdir. Xüsusi elçi öz ölkəsinin Prezidenti Xose Alberto Muxica Kordanonun şəxsi məktubunu dövlətimizin başçısına çatdırmışdır. Görüşdə ölkələrimiz arasında güclü əməkdaşlıq əlaqələrinin qurulacağına ümidvarlıq ifadə olunmuşdur.

**M. RƏHİMOV.**

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 15-də Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.***

***Dövlət başçısı iclası giriş nitqi ilə açmışdır.***



Azərbaycan Prezidenti İlham Əliyev giriş nitqində qeyd etmişdir ki, bütövlükdə ötən il ölkə iqtisadiyyatı üçün çox uğurlu il olmuşdur. Ümumi daxili məhsul 2,2 faiz artmışdır. sənaye istehsalı 2,3 faiz azalsa da, ümumi daxili məhsulun 2,2 faiz səviyyəsində artımı çox müsbət göstəricidir. Ən sevindirici məsələ ondan ibarətdir ki, bu artım qeyri-neft sektorunun hesabına qazanılmışdır. Qeyri-neft sənayesi təxminən 8 faiz artmışdır. Kənd təsərrüfatı təxminən 6 faiz artmışdır. Makroiqtisadi vəziyyət çox müsbətdir. İnflyasiya cəmi 1,1 faiz səviyyəsindədir. Bu, son illərdə ən aşağı səviyyədir. Əhalinin pul gəlirləri isə 13,8 faiz artmışdır. Yəni inflyasiya ilə pul gəlirləri arasında fərq 10 faizdən çoxdur. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biri olduğunu qeyd etmək olar.

Rəsmi statistik məlumatlara görə, keçən il investisiyalar 22 milyard dollardan çox olmuşdur. Bunun 13 milyarddan çoxu daxili, 9 milyard dollara yaxını isə xarici investisiyalardır. İlk növbədə bu onu göstərir ki, daxili investisiyalar artıq bir neçə ildir ki, ümumi investisiya portfelində üstünlük təşkil edir. Digər tərəfdən, 9 milyard dollara yaxın xarici sərmayənin qoyulması da onu göstərir ki, Azərbaycan xarici investorlar üçün çox etibarlı tərəfdaşdır, çox cəlbedici ölkədir.

Ölkənin maliyyə imkanları daim artmışdır. Bu ilin büdcəsi də rekord səviyyədədir. Bu il 20 milyard manata yaxın vəsait xərclənəcəkdir.

Keçən il valyuta ehtiyatları da artmışdır. Xərclər də kifayət qədər çox idi. Cənab Prezidentin qeyd etdiyi kimi hazırda respublikanın ümumi valyuta ehtiyatları 46 milyard dollar səviyyəsindədir. Valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini təşkil edir. Yəni iqtisadi sabitlik,—təbii ki, möhkəm siyasi sabitlik üzərində qurulmuş iqtisadi sabitlik,—infrasturktur layihələr, sosial proqramlar və digər sahələrdəki fəaliyyətlər 2012-ci ildə də çox gözəl nəticələrə gətirib çıxarmışdır.

Sosial məsələlərin həllinə gəldikdə, keçən il sosial proqramlar da icra edilmişdir. Cari ildə isə bu məqsədlər üçün əlavə vəsait nəzərdə tutulacaq. Ölkə başçısı əmin olduğunu bildirmişdir ki, sosial siyasətimiz bu il də çox təsirli olacaqdır. Keçən il 117 min yeni iş yeri açılmışdır.

**(Ardı 3-cü səhifədə).**